


Qəmbər Cəfərov

# Türkologiyaya beynəlxaq baxış

(s.9-26)

Qəmbər Cəfərov. **Türkologiyaya beynəlxaq baxış**. *I Международный системологический конгресс тюркологов. Пленарное заседание. Доклады.* “Asiman”, Г., 2022, с. 96, ISBN 978-9952-8442-0-7, стр.9-26.

# Türkologiyaya beynəlxaq baxış.

Hörmətli Konqres iştirakçıları!

Sizləri Türkoloqların I Beynəlxalq Sistemoloji Konqresinin açılışı münasibəti ilə salamlayıram və türkologiyanın bu keşməkeşli inkişaf yolu haqqında müəyyən tarixi məqamları nəzərinizə çatdırmağı özümə borc bilirəm.

Uzun illərdir müasir dünyada türkologiyanın inkişaf etdirilməsi ilə əlaqədar kifayət qədər effekli elmi-metodiki tədqiqat materialları nəşr etdirilmişdir.

Məlum olduğu kimi Türkologiya – humanitar elmlər kompleksi olub, türklərin tarixini, dillərini, ədəbiyyatını, folklorunu, etnologiyasını müqayisəli şəkildə öyrən elmdir. Türkologiyaya Şərqi Sibirdə yaşayan Saxalardan tutmuş Balkanlar və Moldovada yaşayan Qaqauzlara qədər bütün türk xalqları daxildir.

Türkologiya Qərbin və Şərqin öyrənmə cəhdləri nəticəsində meydana çıxan şərqşünaslıq əsasında bir sistem əldə etmiş elmdir.

Türk dili, ədəbiyyatı, mədəniyyəti və tarixi üzərində tədqiqatlar aparan, Türkə aid olan hər maddii-mədəni dəyərləri aşkar edən Türkoloqlar, milli zəmində ölkələrimizin sistemləşməsində önemli bir rola malikdirlər. Onların ortaya qoyduqları real məlumatlar və fəaliyyətlər türklərin keçmişini, bugününü və gələcəyini dərk etməkdə istifadə edilən bir kompas funksiyasını həyata keçirir.

Keçmişini bilməyən bir milləti, sükansız ve yelkənsiz bir gemiyə bənzətmişlər ki, sonu məhvlə nəticələnir. Türkoloqların əldə etdikləri tarixi biliklərə istinadən deyə bilərik ki, TÜRKÜN kökü tarixin ənginliklərindən süzülüb gələn və yüksək mədəniyyət incilərini özündə daşıyaraq varisliyi layiqli həyata keçirirlər. Bunları görən yadellilər və imperialistlər TÜRKLƏRƏ qısqanclıqla yanaşmış, mədəniyyətini oğurlamış və özününküləşdirməyə çalışmış, torpaqlarını işğal etmək üçün dəfələrlə basqına məruz qoymuşlar.

Türkologiya bir elm olaraq Türklərin geçmişinin və tarixinin öyrənilməsində önəmli rol oynayır və Türk xalqının soyunu, mədəniyyətini, ədəbiyatını, antropologiyasını, dilini, ləhçəsini, terminlərinin sistematik bir şəkildə tərtibatını, araşdırmasını həyata keçirir, unudulmuş bir çox anlayışları və xarakterik xüsusiyyətləri üzə çıxarır. Bu sahədə çalışan Türkoloqlar isə Türklərin özlərini tanımasında, keçmişlə gələcək arasında köprünün qurulmasında vasitəçi olmuşlar.

İlk Türkologiya kürsüsü 1795-ci ildə Parisdə qurulmuşdur. Türkologiya elminin ilkin araşdırmaçılarından olan Rusiyalı şərqşunas və Türkoloq Vilhelm Radloff və Vilhelm Thomsen Orhon kitabələrinin çözülməsində önəmli işlər görmüşlər.

İlk türkologiya inistitutu da 1795-ci ildə Parisdə École des Langues Orientales Vivantesdə açılmışdır. Bunu şərqşünaslıq və türkologiya ilə bağlı digər inistitutlar da izləmişdir.

1814 –cü ildə Moskvada, 1821- ci ildə təkrarən Parisdə və 1906-cı ildə Londonda yaradılan bu çür inistitutların yayımladığı bir çox əsərlər, jurnallar, məqalələr və s. kimi çap məhsulları türkologiyaya olan marağın mövcudluğundan xəbər verir.

Eyni zamanda Qərbşunas elm adamları tərəfindən də bu sahənin sistemli bir hala gətirilməsi gerçəkləşdirilmişdir.

Orhon Yazılarından öncəki Türkler haqqında bilgiləri 4-6 - cı yüzilliklər arası yaşamış Priskos, Apolinaris və Jordanes kimi Latin/Bizans əsilli yazarlardan Avropalılar öyrənmişlər.

Qədim Çin qaynaqlarında da Türklərin Milatdan öncəki dönəmlərdən fundamental bilgilərə sahibi olduqları qeyd edilmişdir.

İlk türkoloqların xaricilər olması xüsusi maraq kəsb edir. Belə ki, Pian del Carpine, Villem Van Ruysbroek, Marco Polo, İbni Batuta ilk Türkoloq olaraq onların Türk olmadığı üzə çıxmışdır.

Fransızlar davakarcasına millətlər arasında milliyetçilik toxumu səpərək, ali irq və millət kimi özlərini şişirtsələr də, o dönəmdə öz köklerini araşdıran bir çox millətlər də köklərinin daha dərinliklərə gedərək köklərinin Türklərə qədər uzandığını, onların yüksək mədəniyyət və tarixini müəyyən etmişlər. Eyni zamanda Pietro Ferraguto, “Grammatica Turca” adlı əsəriylə Türk dilinin qramatikasını ilkin olaraq sistemli şəkildə göstərmişdir.

Türk Türkoloqlardan Ziya Gökalp, Adile Ayda, Ahmet Nejdet Sançar, Fuat Köprülü, Hüseyin Nihal Atsız və s. kimi şəxsləri misal göstərmək olar. Xarici Türkoloqlardan olan Vilhelm Redolff, Vilhelm Thomsen, Philip Johan von Strahlenberg, Vang Guovei, Yevgeny Polivanov kimi adlara türkologiya tarixində rast gəlinir.

Türklərin etnoloji məlumatları haqqında ilk dəfə XI əsrdə türk filoloq Mahmud Qaşğarinin "Divanü Lüğat-it-Türk" əsərində sistemləşdirilmiş formada rast gəlinir. Çox dilli lüğətlər isə XIII əsrdə ticarətin daha da genişlənməsinin nəticəsi olaraq yaranmağa başladı. Bunlara Qıpçaq - Fars, Qıpçaq- Latın, Qıpçaq - Alman, Qıpçaq-Rus və əksinə olan dil lüğətləri aiddir.

Eyni zamanda orta əsrlərə aid olan türkoloji əsas məlumatların çoxunu Bizans-Yunan tarixçilərinin, səfirlərinin, coğrafiyaçılarının və səyahətçilərinin əsərlərindən əldə edə bilirik.

1612-ci ildə Jerome Megizer tərəfindən çap edilən qrammatika kitabı, 1680-ci ildə F.Mesginen-Meninskinin çap edilən 4 cildlik Thesaurus Linguarum Orientalium, Türkcə - Latınca lüğət və Türk dilinin qrammatikası əsərləri türkologiyada daha çox diqqəti cəlb edir.

Türk dilinin araşdırılmasına daha çox P.A.Pallasın diqqət yetirərək onu dərindən araşdırmışdır. Bütün dillərin müqayisəli lüğəti əsərində o,türklərin Tatar, Noqay, Başqırd, Mişar, və digər türk etnik qruplarının da xarakterik xüsusiyyətlərini göstərilmişdir.

1839-cu ildə türkologiya sahəsində Mirzə Kazım bəyin yazdığı Türk-tatar dilinin qrammatikası öz dövrünün funtamental əsərlərindən idi. Bundan əlavə, 1851-ci ildə O.N.Betlinqs də Yakut dilinin qrammatikası əsərinin nəşri, 1895-ci ildə Vilhelm Tomsen və Vasili Radlov tərəfindən Orxon abidələrinin oxunması türkologiyanın əsas uğurlarındandır. Çar Rusiyası dövründən başlayaraq Azərbaycanda türkologiya elmi araşdırlmağa başlanmışdır. Rus şərqşünaslığının banilərindən hesab edilən Mirzə Kazım bəy həmçinin bu elmin əsasını Azərbaycanda qoymuşdur.

Bütün tarixi dövrlərdə müəyyən qadağalar türkologiyaya böyük zərbə olsa da, türkün özünü daha dərindən tanımasına şərait yaratdı, Türkün tarixi təkcə türklər tərəfindən deyil, daha çox başqa xalqlar tərəfindən də araşdırıldı. Türkün tarixində türkologiyanın linqivistik araşdırılması həyata keçirildi ki, bu da türkologiya ilə türk dili bir elm kimi demək olar ki, eyniləşməyə səbəb olmuşdur.

Türkologiya elmi XIX əsrin sonlarında tarix, filologiya, folklorşünaslıq, arxeologiya, etnologiya və XX əsrdə isə fiziki antropologiya, numizmatika, genetika, qədim Türk əlifbaları, tipologiya, genezis, etimologiya, onamastika və toponomika kimi elm sahələrinə də daxil olmuşdur.

1905-1927-ci illərdə Türkische Bibliothek əsərinin yazılması və 1921-1926-cı illərdə “Mitteilungen zur Osmanischen Geschichte” əsərinin yazılması ilə türkologiyada yeni bir cərəyan formalaşır. Bu cərəyan Türkə və türkologiyaya qısqanclıq, qorxu və vahiməli hisslərin oyanmasının nəticəsi kimi imperiyanın ana xəttini təşkil etdi. 1937-ci ildən Böyük təmizləmə şüarı altında əlləri çatan bütün Sovet ölkələrində olan məşhur türkoloqların əksəriyyəti ya güllələndi ya da ki,daha çox ölümlə nəticələnən daha ağır şəraitli, soyuqlu Sibirə sürgünlərə göndərildi.

Kommunist partiyasının Mərkəz Komitəsinin sərəncamı ilə 1944-cü ildə rəsmi olaraq türk tarixinin "qədimləşdirilməsi" cəhdləri qadağan edildi, bütün ittifaq ölkələrində sağ qalmış türkoloqların həbsi, güllələnməsi, sürgünü və sürgündəkilərin ciddi izlənməsi və məhvi həyata keçirildi. Bu dövrə qədər yazılmış bir çox əsərlər qadağan edildi, yandırıldı və müəlliflərinə pantürkizm damğası vuraraq cəzalandırıldı. Hətta məqsədli şəkildə bu kitabların yandırılması mərasimi təntənəli təşkil edilirdi. Türk xalqlarının köklü şəkildə deportasiyaları, onlara qarşı sünii qırğınlar törədildi.

Kütləvi sovet repressiyaları zamanı insanlar yalnız cismani deyil, həm də mənəvi əzab çəkiblər. Mənşəcə və mədəniyyətcə xalqa yabançı olan iqtidar hər hansı mədəniyyət fərqinin büruzə verilməsini hakimiyyətin zorakılığına qarşı etiraz növü kimi qəbul etdi. Nəticə etibarilə, itaətində olan xalqı yadelli xalqlar adlandırmış, nisbətdə lazımınca inkişaf etməmiş xalqlar hesab etmişlər.

Sovet hakimiyyətinə “ideoloji düşmən” saydıqları türkoloqları “siyasi düşmən”adlandırmışlar. Müxtəlif bəhanələrlə minlərlə Türk ziyalıları qüllələnmiş, on minlərlə azad fikirli və düşüncəli aydınlar zindanlara atılmış, sürgünə göndərilmiş, yüz minlərlə dinc sakinlər öz evlərindən ailəsi ilə, ata-anası və körpə balaları ilə birlikdə quş qanad, qatır dırnaq salmayan Sibir çöllərinə atılmışdı. Bu şəxslərdən və şəxsiyyətlərdən bir qismi aşağıda göstərilmişdir. Elə bu repressiya dövründə insanlar öz növbəsində övladlarının sağ qalması üçün türkoloji əsərləri, hakimiyyətdən və hətta oğul-uşaqlarından belə gizlətməyə çalışmışlar.

Qadağaların bu qədər kəskin olmasına baxmayaraq, rəsmi nəşrlər dayandırılsa da, Sovet hökuməti heç cürə insanların türkologiya sahəsində gizlin araşdırmalar aparmasına mane ola bilmirdi. SSRİ-nin süqutundan sonra keçmişdə yazılmış, lakin həbs qorxusuna görə yayımlanmamış yazılar nəşr edilməyə başladı. Məlum oldu ki, "qadağalar" dövründə yazılmış əsərlərin sayı təsəvvür olunandan daha çox imiş. Kütləvi sovet repressiyaları zamanı siyasi və ideoloji düşmən adlandırılaraq təqiblərə, həbslərə, sürgün və güllələnməyə məruz qalan türkoloqların bir qismini nəzərinizə çatdırırıq.

• Əbdürrəhim Əli Rəhim (Əli Şakiroviç), (1892-1943), Saul Abramzon – Türkoloq, alim, ədəbiyyat tənqidisi, yazıçı, Kazan Qərb Pedoqoji Universitetinin dosenti. Sovet hökuməti tərəfindən həbs edilmiş, sonra azadlığa buraxılmışdır. Azadlığa buraxıldıqdan sonra Kazana geri dönmüş, lakin qısa müddətdən sonra yenidən həbs edilmiş, 10 illik ağır iş şəraitində sürgünə göndərilmişdir.

• Eyvazov Asan Səbri (1878-1938) – Krımlı alim, jurnalist, tərcüməçi, müəllim, Tatar qəzetinin redaktoru, Tatar qurultayının üzvü, Krım Xalq Respublikasnın Türkiyədəki səfiri kimi çalışmışdır, Krım sovetləşdikdən sonra daim təqiblərə məruz qalmışdır. 1938-ci ildə vətənə xəyanətdə və əks-inqilabçı millətçi təşkilatın üzvü olmaqda ittiham edilərək Simferopolda güllələnmişdir.

• Ağçoxraqlı Osman Nuri Əsəd (1878-1938) – Tarixçi, yazıçı, pedaqoq, jurnalist, Zincirli mədrəsəsində təhsil almış, Tatar qurultayının üzvü olmuş, 1938-ci ildə kommunistlər tərəfindən güllələnmişdir.

• Gabdulxay Axatov (1927-1986) – Alim, filologiya üzrə professor, Türkoloq, ictimai xadim, modern Tatar dialektologiyasının banisi, Kazan Frazeologiya Məktəbinin qurucusu və bir çox funtamental elmi əsərlərin müəllifi. Böyük təmizləmə zamanı həbs edilmişdir.

• Əsfəndiyarov Səncər Cəfəroviç (1889-1938) – Türkoloq, Moskva Şərq Elmləri İnistitutunun rektoru. 1938-ci ildə güllələnmişdir.

• Bayburtlu Yahya Naci Süleyman (1876-1943) –- Baxçasaray Türk məktəbinin rəhbəri, jurnalist, Krım tatar qurultayının üzvü (1917), NKVD tərəfindən anti-inqilabi təşkilata üzv

olmaqda və millətçilikdə ittiham edilmiş, Arxengelsk vilayətinə sürgün edilmiş və burada da ağır şəraitə görə 1943-cü ildə vəfat etmişdir.

• Əhməd Baytursunov (1873-1937) – Alim, ictimai xadim, 1905-1906 Rus Dumasının üzvü, Qazax filosofu, ilk Qazax eposlarının və folklorunun aşardırmaçısı, Qazax dilinin əlifbasının, ilk fonetik izahının və sintaksis təhlilinin müəllifi. 1931-ci ildə ömürlük həbs edilmiş, 1935-ci ildə Maksim Qorkinin həyat yoldaşının xahişi ilə buraxılmış, lakin 1937-ci ildə yenidən həbs edilərək, güllələnmişdir.

• Baryı Battal Taymas (1883-1969) – Tarixçi, ədəbiyyat tənqidçisi, ictimai xadim, Altay qəzetinni yaradıcısı. 1921-ici ildə həbs edilsə də, Sovetlərdən qaçmağı bacarmış, İstanbulda dəfn edilmişdir.

• Bertels Yeugeni Edvardoviç (1890-1957) – İranist və türkoloq, 1939-cu ildən SSRİ EA-nın üzvü, 1944-cü ildən İran EA-nın, eyni ildənTürkmənistan EA-nın, 1951-ci ildə Suriya EA-nın üzvü, Asiya muzeyinin, İncəsənət Muzeyinin, Leninqrad Dövlət Universitetinin, Leninqrad Şərq Dilləri İnistitutunun Rəyasət heyətinin üzvü. 1922-1925-ci illər ərzində 3 dəfə fransız casusluğunda ittiham edilərək həbs edilmiş, buraxıldıqdan sonar 1941-ci ildə alman casusluğunda ittiham edilərək həbs edilmiş və sonradan azad edilmişdir.

• Hüseyn Abdrefi Bodaninski (1877-1938) – Etnoqraf, aktyor, tənqidçi. 1917-ci ildən Baxçasaray muzeyinin rəhbəri olmuşdur. Dəfələrlə arxeoloji və etnoqrafol ekspedisiyaların təşkilatçısı olmuşdur. 1938-ci ildə Simferopolda güllələnmişdir.

• Çerman Timofey Pavloviç (?)– İqtisadiyyatçı, tarixçi, tarixçünas, Türkiyə üzrə ekspert. Həbs edilmişdir. Sonrakı taleyi bəlli deyil.

• Bəkir Çobanzadə Vahab oğlu (1893-1937) – Görkəmli Sovet türkoloqu, əslən Krım tatarıdır. Budapeşt Universitetini bitirmiş, sonralar həmin universitetdə də dekan vəzifəsində çalışmışdır. 1924-cü ildən Azərbaycanda çalışmışdır. "Stalinist dil konstruksiyalarında" aktiv iştirak etmişdir. Kislovodskda olarkən həbs edilmiş və güllələnmişdir.

• Çolpan (1897-1937) – Özbək yazıçısı və alimi. Böyük təmizləmə zamanı güllələnmişdir.

• A.A.Divay (1855-1933) – Başqırd inpektoru, türkoloqu, güllələnmişdir.

• Fielstrup Feodor Arturoviç (1889-?) – Etnoqraf-türkoloq, Rusiya Muzeyinin Etnoqrafiya şöbəsinin müdiri, Rusiya və qonşu ölkələrin tayfa strukturunun araşdırılması komissiyasının üzvü olmuşdur. 1933-cü ildə həbs edilmişdir. Sorğulama zamanı işğəncələrə dözməyərək ölmüşdür.

• Qubaydullin Qaziz Salihoviç (1887-1937) – Tarixçi, Bakı Dövlət Universitetinin professoru (1927). Həbs edilmiş və güllələnmişdir.

• Hakim Niqmət (?) – Türkoloq, linqivist, Kazan Pedoqoji Universitetinin Tatar dili fakültəsinin dosenti olmuşdur. 1936-cı ildə həbs edilmiş, heç bir rəsmi məlumat verilmədən öldürülmüşdür.

• Vəli Xuluflu (1894-1938) – Ədəbiyyat tarixçisi, publisist,. Azərbaycan SSR Dil Ədəbiyyat İncəsənət İnistitutunun Direktoru, Azərbaycan EA-nın İncəsənət bölməsinin rəhbəri (1934-1937), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1934), professor (1931), Həbsdən bir gün əvvəl alimin evində axtarış aparılır, axtarışda guya evindən müxtəlif kitablar, (Buxarinin, Kamenevin, Trotskinin, Zinovyevin), şəkil və məktubları götürülüb. 5 oktyabr 1937-ci ildə 6 maddə ilə ittiham və həbs edilərək rəsmi məlumat verilmədən öldürülmüşdür.

• Xudayarov Qalyautdin Qaynutdinovç (1891-1966) – Naşir, pedaqoq, Tatar Muxtar Sovet Respublikasının Xalq Maarif Komissarı. Böyük təmizləmə zamanı iki dəfə həbs edilmişdir. Detalları bilinmir.

• Xudyakov Mixail Georgiyeviç (1894-?) – Arxeoloq, Volqa boyunca yaşayan xalqların tarixi və mədəniyyətinin araşdırmaçısı, Leninqrad Dövlət Tarix-Dil İnistitutunun dosenti, SSRİ EA-nın Maddi Mədəniyyət Tarixi bölməsinin üzvü olmuşdur. 1936-cı ildə məhkəmə belə olmadan güllələnmişdir.

• Latynin Boris Aleksandroviç (1899-1967) – Arxeoloq, etnoqraf, Volqa boyu və Mərkəzi Asiya xalqlarının araşdırmaçısı. 1935-ci ildə həbs edilmiş, 1940-cı illərin sonlarında azad edilmişdir. Sonralar Ermitaj muzeyində çalışmışdır.

• Leyboviç Eugeni Solomon (?-1936) – Arxeoloq və etnoqraf (Volqa boyu və Ural boyu əhali üzrə).1936-cı ildə həbs edilmiş və güllələnmişdir.

• Mənsurov Qasım Qatıeviç (1894-1955) – Tarixçi, 1920-ci illərdə Kazanda dövlət orqanlarında çalışmış, sonralar elmi araşdırmalar üçün Moskvaya keçmişdir. Tatatr İnqilabı hərəkatı barədə iki monoqrafiya yazmışdır. Bilinməyən səbəbdən həbs edilmiş və Muroma sürgün edilmişdir. Lakin sonralar azad edilmişdir.

• Martinoviç Nikolay Nikolayeviç (1883-1939) – Türkoloq-etnoqraf, folklor üzrə mütəxəsis. Professor, Leninqrad Universitetində mühazirələr demişdir. 1921 və 1922 -ci illərdə həbs edilmişdir. 1922-ci ildə mühacirətə qaçmışdır.

• Miller Aleksandr Alexsandiroviç (1875-1937) – Qafqaz üzrə mütəxəsis, etnoqraf, arxeoloq, linqivist, qədim dövr tarix üzrə ekspert, arxeologiya professoru, Gürcü dili üzrə professor, Rusiya Etnoqrafiya Muzeyinin rəhbəri olmuşdur. 1933-cü ildə həbs edilmiş və Daşkəndə sürgün edilmişdir. 1937-ci ildə yenidən həbs edilmişdir və həbsdə olarkən öldüyü güman edilir.

• Yusif Vəzir Çəmənzəminli Mir Baba oğlu (1887-1943) – Azərbaycan yazıçısı, ədəbiyyat tarixçisi, folklor üzrə mütəxəsisi. 1937-ci ildə həbs edilmiş və məhkəmə olmadan güllələnmişdir.

• Muxammedjan Tınışbayev (1879-1937) – Qazax dəmiryolu mühəndisi, aktivist, tarixçi, Alaş Ordanın üzvü olmuşdur. 1937-ci ildə həbs edilmiş və Daşkənddə güllələnmişdir.

• Noviçev Aron Davudoviç (Ailə adı Rabinoviç) (1902-1987) – Türkoloq, Tarix üzrə fəlsəfə elmlər doktoru, Leninqrad Universitetinin professoru, 1932-ci ildən 1937-ci ilə qədər Rusiya EA-nın Şərq Dilləri İnistitutunda çalışmışdır. Türkoloqlar Assosasiyasının üzvü olmuşdur. 1937-ci ildə həbs edilmiş və 1940-cı ilə qədər sürgündə olmuşdur. Sonralar Leninqrad Universitetinin Şərq Dilləri bölməsində çalışmışdır.

• Odabaş Abibulla Abdürrəşid (1891-1938) – Krım Pedoqoji Universitetinin müəllimi, Krım Tatar Qurultayının üzvü, "Yaşıl Ada" və "Bilgi" qəzetlərinin redaktoru olmuşdur. 1928-c ildə həbs edilmiş və güllələnmişdir.

• Polivanov Eugeni Dimitrioviç (1891-1938) – Şərq dilləri dilçisi (Yapon, Çin, Koreya, Dunqan və Türk dilləri üzrə), 1915-1921-ci illər ərzində Peterburq Universitetinin professoru olmuşdur. 1917-1918-ci illərdə Xarici İşlər Nazirliyinin Şərq Xalqları bölməsinə rəhbərlik etmişdir. Daşkənd, Səmərqənd və Bişkekdə elmi araşdırmalar aparmış, Qırğızıstanda Frunze adına Universitetdə dərs demişdir. 1937-ci ildə yapon casusluğunda ittiham edilərək həbs edilmiş və1938-ci ildə güllələnmişdir.

• Vasili Radlov (1837-1918) – Alman əsilli görkəmli Türkoloq, Berlin Universitetini bitirmiş, 1858-ci ildən Rusiyada çalışmışdır. Rusiya Elmlər Akademiyasının akademiki olaraq, o həmçinin Orxon yazılarının şifrəsini də çözmüşdür. 1938-ci ildə Pantürkizmdə ittiham edilərək, əsərləri qadağan edilmişdir.

• Sergey Rudenko İvanoviç (1885-1969) – Arxeoloq və etnoqraf kimi Transbaykaliada, Altay dağlarında, Qazaxıstanda və Başqırdıstan Muxtar Sovet respublikasında çalışmış, Rusiya Etnoqrafiya Muzeyinin rəhbəri olmuş, Rusiya və qonşu ölkələrin tayfa strukturunu öyrənən dövlət komissiyasının baş katibi olmuş, 1931-ci ildə həbs edilmiş və 10 illik QULAQ-a göndərilmişdir.1934-cü ildə Belomor-Baltik Kanalının çəkilişnə cəlb edilərək hidroloq kimi çalışmış, 1945-ci ildə yenidən arxeologiyaya dönmüş və məşhur Pazırıq mədəniyyəti (Skif) qazıntılarına rəhbərlik etmişdir.

• Ryukov Paul Sergeyoviç (1884-1942) – Arxeoloq olaraq Volqa boyunda və Qazaxıstanda SSRİ EA-nın mədəniyyət Tarixi bölməsinin eksperti kimi çalışmış, 1938-ci ildə həbs edilərək məhkəmə keçirilmədən güllələnmişdir.

• Sadıqov Kərim Muhamməd (1888-1939) – Türkoloq və iranist olaraq 1934-cü ildən Tarix-Arxeologiya İnistitutunun və SSRİ EA-nın Şərq Elmləri bölməsinin üzvü olmuş, 1936-cı

ildə SSRİ cinayət məcəlləsinni 58-cı maddəsinə əsasən günahkar bilinmiş və 5 illik ağır işlərdə çalışmaq üçün Uzaq Şərqə göndərilmişdir. 1939-cü ildə ağır sağlamlıq problemlərinə görə azad edilsə də yolda vəfat etmişdir.

• Seyfi Fateh Kəmaləddin (?) – Tarixçi-türkoloq, Kazan Pedoqoji Universitetinin müəllimi olmuş, 1936-cı ildə həbs edilərək məhkəməsiz güllələnmişdir.

• Aleksandr Samoyloviç (1880-1938) – Türkoloq, SSRİ EA-nın akademiki, 1934-1937-ci illərdə Şərq İnistitutunun direktoru olmuşdur. 1937-ci ildə həbs edilmiş, 1938-ci ildə güllələnmişdir.

• Şərəf Qalimdyan Şərəfutdinoviç (1896-1950) – Dilçi alim, milli hərəkatın rəhbərlərindən olaraq, həbs edilmiş və güllələnmişdir.

• Şmit Aleksey Viktoroviç (1884 or 1885-1935) – Volqa, Kama və Ural boyu üzrə ixtisaslaşmış arxeoloq və Akrikanist etnoqraf, SSR EA-nın Mədəniyyət Tarixi bölməsinin üzvü, SSRİ EA-nın Elmi Antropologiya və Etnoqrafiya İnistitutunun Afrika bölməsinin rəhbəri olmuşdur. 1935-ci ildə həbs edilmiş və sorğulama zamanı işğəncələrdən ölmüşdür.

• Serov Anton Mixailoviç (?) – Türkoloq, 1949-cu ildə həbs edilmiş, Xruşşovun amnitsiyaları verilənə qədər həbsdə qalmışdır.

• Maqsud Şeyxzadə (1908-1967) – Azərbaycan əsilli Özbəkistanın məşhur şairi, yazıçısı, tərcüməçisi və ədəbiyyat tənqidçisidir. 1927-ci ildə millətçilik ittihamı ilə Azərbaycandan Özbəkistana sürgünə göndərilmişdir. 1951-ci ildə yenidən həbs edilir və ümumi amnitsiya verilənə qədər həbsdə qalır.

• Şeytenberq Lev Haym Yakovleviç (1861-1927) – Etnoqraf, Sibir və şimal xalqları üzrə mütəxəsis olaraq SSRİ EA-nın Elmi Antropologiya və Etnoqrafiya İnistitutunda çalışmışdır. 1921-ci ildə həbs edilmiş və Maksim Qorkinin xahişindən sonra azad edilmişdir.

• Sidorov Aleksey (?) – Leninqrad Universitetinin Şərq dilləri bölməsinin tələbəsi olmuş, 1949-cü ildə həbs edilmiş və Xruşşovun ümumi əhvinə qədər həbsdə qalmışdır. Azadlığa buraxılsa da intihar etmişdir.

• Mirseyid Sultanqaliev (1892-1940) – Tatarıstan Respublikasının qurucularından biri, Millətlər Komissarlığının üzvü. Böyük təmizləmə zamanı NKVD-nın həbs dosyesində adı Sultanqaliyevşinadır. Həbs edilmiş və ölüm hökmü oxunmuşdur.

• Talanov Nikolay Georgiyeviç (1897-1938) – Mərkəzi Asiya üzrə tarixçi, Leninqrad Şərq İnistitutunun rəhbəri, Etnoqrafiya muzeyinin 1935-ci ildən rəhbəri olmuşdur. 1937-ci ildə həbs edilmiş və 1938-ci ildə güllələnmişdir.

• Çernişev Eugeni İvanoviç (1894-1936) – Tatar tarixi üzrə ekspert, Kazan Pedoqoji Universitetinin dosenti olmuşdur. 1936-cı ildə məhkəməsiz güllələnmişdir.

• Teplukov Sergey Aleksandroviç (1888-1934) – Arxeoloq və Sibir üzrə etnoqraf. SSRİ Mədəniyyət Tarixi İnistitutunda, Rusiya Dövlət Muzeyində, Leninqrad Universitetində işləmişdir. 1934-cü ildə həbs edilmiş və həbsdə intihar etmişdir.

• Tsedenişe (?- 1936,1937) – Monqolist. Leninqrad Şərq İnistitutunun müəllimi olmuşdur. 1936 və ya 1937-ci ildə həbs edilmiş və məhkəməsiz güllələnmişdir.

• Tsintsius Vera İvanovna (1903-1981) – Tunqus-Mancur dilləri üzrə ekspert. Şimal Xalqları İnistitutunun işçisi olmuş, 1936-cı ildə həbs edilmiş, 1940-cı ildə həbsdən azad edilmişdir. II Dünya Müharibəsi zamanı Leninqrad Dilçilik İnistitutunda çalışmışdır.

• Tsovikiyan Horem Mkrt (1900-1942) – Etnik cəhətdən erməni olan türkoloq və tarixçi. Leninqrad Dövlət Universitetinin dosenti olmuş, Şərq İnistitutunda araşdırmaçı kimi çalışmışdır. 1938-ci ildə həbs edilmiş, 1939-cu ilə qədər həbsdə qalmış, Leninqradın blokadası zamanı ölmüşdür.

• Uxtomsky Aleksandr Alekseyeviç (1872-1937) – Şərqi Rusiya Mədəni Təhsil Cəmiyyətinin katibi, Ufa və Menzelinskynin yepiskopu (1913) olmuşdur. "Volqa arxasında" jurnalının (1917) redaktoru və Müqəddəs Sinodun (1917 ) üzvü olmuşdur. Müxtəlif vaxtlarda həbs edilmiş və 1937-ci ildə Yaroslavda güllələnmişdir.

• Umnyakov İvan İvanoviç (1890–1976) - Tarixçi, arxeoloq, Vasili Bartold məktəbinin davamçısı olmuşdur. 1920-ci illərin və 1930-cu illərin əvvəllərində iki dəfə həbs olunmuşdur. Arxangelskə sürgün edilmiş, Xruşşov dövründə əhv edilmişdir.

• Səid Vahidov Qabdulmannan (1887-1937) – Arxeoqraf-alim, tarixçi. Həbs edilmiş və 1937- ci ildə güllələnmişdir.

• Zəki Validi Toğan (1890-1970) – Türkoloq, tarixçi, akademik, siyasi fiqur, Başqırdıstanın ilk rəhbəri (1918). Tıqiblərə məruz qalmış və Türkiyəyə mühacirət etmişdir.

• Vasmer Riçard Vilhelm Georg (1888-1938) – Ərəb dili, türk dili, fars dili, ivrit dili, Suriyan dili üzrə ekspert, şərqşünas, Ermitaj muzeyinin şərq sikkələri bölməsinin rəhbəri olmuşdur. 1936-ci ildə həbs edilərək Daşkəndə sürgün edilmiş, sürgündə ölmüşdür.

• Zabirov Vəli Əbdürrəhman (1897–1937) - Tatar alimi, türkoloq, SSRİ EA-nın Şərqşünaslıq İnistitunun məzunu və Leninqrad Dövlət Universitetinin müəllimi olmuşdur. 1936-cı ildə həbs edilmiş, Solovki həbsxanasında güllələnmişdir.

• Zeynallı Hənəfi Baba oğlu (1896 — 1937) müəllim, ədəbiyyatşünas, tənqidçi, folklorşünas, mətnşünas, Azərbaycan şifahi xalq ədəbiyyatının ilk tədqiqatçılarından biri, 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü. Zeynallı 1928-ci ildə Bakıda Türkiyə konsulu Fərid bəylə əlaqə saxlamaqda və onun vasitəsilə tanınmış türk millətçi xadimi İsmayıl Hikmətlə məktublaşmaqda, 1929-cu ildə və sonrakı dövrdə müsavatçılardan Baharlı, Feyzullayev, Mövsümov və həmçinin Bəkir Çobanzadə ilə sıx əlaqə saxlamaqda, alimin öz əsərlərində

əksinqilabi millətçi ideologiyadan yazmaqda günahlandırılırdı. 1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 15 dəqiqəlik məhkəmə iclasında güllələnməyə məhkum edir.1937-ci il oktyabrın 13-də hökm yerinə yetirilir.

• Ruhulla Əli oğlu Axundov (1897-1938) — Azərbaycan, sovet dövlət və partiya xadimi, publisist, alim, 1919-cu ildən Azərbaycan Kommunist Partiyasının üzvü, Azərbaycan Kommunist Partiyasının I katibi (1925–1926). Azərbaycan dilinin elmi terminologiyasını işləyib hazırlayıb. Latın əlifbasına keçidin qızğın tərəfdarlarından və təşkilatçılarından biri olub. Marksın əsərlərini Azərbaycan dilinə ilk dəfə Ruhulla Axundov tərcümə edib. R.Axundov da 1930-cu ildə respublikadan uzaqlaşdırılaraq ÜİK (b) P Zaqafqaziya Ölkə Komitəsinin katibi vəzifəsinə göndərilib. Bu dövrdə yüksək səviyyəli azərbaycanlı kadrlar respublikadan uzaqlaşdırıldığına görə rəhbər vəzifələrə əsasən erməni millətindən olan şəxslər təyin olunurdu. 1932-ci il dekabrın 29-da Azərbaycan Dövlət elmi-tədqiqat institutu əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsi yaradıldı ki, onun da fəaliyyətinə yenidən respublikaya qayıtmış R.Axundov rəhbər təyin olundu və ona qarşı düşmən mövqedə olmuş rəhbər işçilərə, o cümlədən R.Axundova qarşı gizli planlar başlanır. 1937-ci il iyunun 8-də "Pravda" qəzetində Rıklinin imzası ilə "Düşmənin hiylələri" adlı məqalə dərc edilərək R.Axundova qarşı ağır ittiham irəli sürülür və o, xalq düşməni kimi güllələnir. Sonradan 1956-ci ildə ona bəraət verilir.

• Əli bəy Hüseynzadə (Əli Hüseyn Turan) 1864-1940, Azərbaycan ədibi, filosof və ədəbiyyat tənqidçisi, XX əsr Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri. Uzun müddət alim, həkim, rəssam, şair, tənqidçi, tərcüməçi, müəllim, jurnalist kimi fəaliyyət göstərmiş, bu sahələrin hər birində özünəməxsus iz qoymuşdur. Azərbaycan mətbuatı və publisistikası sahəsində müstəsna xidmətləri vardır. 1885-ci ildə Sankt-Peterburq Universitetinin riyaziyyat fakültəsinə daxil olmuş, həm də şərq fakültəsində görkəmli professorların mühazirələrini dinləmişdi. Rusiyaimperiyasındakı ictimai-siyasi təlatümlərlə əlaqədar o, Türkiyəyə gəlir. 1897-ci ildə Qırmızı Aypara Cəmiyyəti heyətinin tərkibində İtaliyaya gedir. 3 ildən sonra geri qayıdaraq müsabiqə yolu ilə İstanbul Darülfünunda əsgəri-tibb fakültəsində professor köməkçisi vəzifəsinə təyin edilir. O burada da inqilabçı gənc türklər hərəkatına qoşulduğundan və "İttihad və tərəqqi" partiyasının ilk özəyini yaradanlardan biri olduğundan təqib olunur. 1940-cı ildə İstanbulda vəfat edib.

• Məhəmməd Əmin Rəsulzadə (1884-1955,Ankara) — azərbaycanlı ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının Rəyasət Heyətinin sədri (may-dekabr 1918). Onun "Bir kərə yüksələn bayraq, bir daha enməz!" ifadəsi XX əsrdə Azərbaycanda müstəqillik hərəkatının şüarı olmuşdur. Aprel işğalından sonra Bakıda qalmağın təhlükəli olduğunu və daim axtarıldığını hiss edərək Bakını

tərk edərək Abbasqulu Kazımzadə ilə Lahıca gedir. O, ciddi izlənilməsi haqqında məlumatları alır və oradan 1920-ci ilin avqustun 25-də çıxıb Qaraməryəm istiqamətinə gedərkən həbs olunur. XI Ordunun Hərbi İnqilabi Şurasının Xüsusi şöbəsinin 1931 saylı həbs vərəqi əsasında Abbasqulu Kazımzadə ilə birgə həbs olunur. O, özü haqqında 36 yaşı olduğunu, orta təhsilli və jurnalist olduğunu, hökumətdə olduğunu, Müsavat Partiyasının Mərkəzi Komitəsinin sədri olduğunu, öz hesabına yaşadığını və ailəli olduğunu açıqlayır. İosif Stalinlə şəxsi əlaqəsi olduğu üçün Stalin xüsusi şöbədə həbsdə saxlanılan Məhəmməd Əmin Rəsulzadəni, Məhəmməd Əli Rəsulzadəni və Abbasqulu Kazımzadəni həbsdən azad edib, qatara onun sərəncamına aparılmasına məktubla müraciət edir. Həbsdən azad edilən Məhəmməd Əmin Rəsulzadə ailəsi ilə görüşərək Moskvaya yola düşmüş, Moskvada bir müddət RSFSR Millətlər Komissarlığında çalışmış, oradan Peterburqa, sonra Finlandiyaya, sonra isə Türkiyəyə mühacirət edir. 1940-cı ildə Ankarada vəfat edib.

• Əhməd bəy Ağaoğlu (1869-1939) – Azərbaycanın Şuşa şəhərində dünyaya gəlib. Azərbaycan və Türkiyə ictimai xadimi, siyasətçisi, jurnalisti, pedaqoqu, yazıçısı, türkoloqu və liberal Kamalizmin banisi. Fransada təhsil aldıqdan sonra geri qayıdıb 1896-cı ildə Şuşada ilk kitabxana, qiraətxana açıb. 1897-ci ildə H.Z.Tağıyevin dəvəti ilə Bakıya gəlib, "Kaspi" qəzetində məqalələr yazıb. O, həmçinin Ə.Hüseynzadə ilə birlikdə "Həyat" qəzetinə də redaktorluq edib. 1905-ci ildə çar hökumətinə və daşnak ermənilərə qarşı mübarizə aparmaq üçün gizlin "Difai" təşkilatını qurub. Bir müddət sonra çar hökuməti tərəfindən təqib olunan Əhməd bəy aylarla dostlarının evində gizlin yaşadıqdan sonra həbs olunmamaq üçün 1908-ci ilin sonlarında İstanbula köçməli olur. Türk Ocağı milli hərəkatının aparıcı siması olaraq bu hərəkat tərəfindən keçirilmiş konqresə prezident seçilir. Sonradan gənc türklərin İttihad və Tərəqqi Partiyasına daxil olur. Süleymaniyyədə kitabxana direktoru, "Türk yurdu" jurnalının redaktoru olmaqla yanaşı İstanbul Universitetində Türk-monqol tarixindən və rus dilindən dərs deyir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin köməyinə gəlmiş Qafqaz İslam Ordusu komandanının siyasi müşaviri olmuşdur. 1918-ci ildə Zəngəzur qəzasından bitərəf nümayəndə olaraq Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü seçilsə də daha sonra üzvlükdən imtina edir. Cümhuriyyətin Paris Sülh Konfrasında iştirak etmək üçün göndərdiyi nümayəndə heyətinin tərkibinə Ağaoğlu da daxil edilir. Lakin İstanbula çatanda İttihad və Tərəqqi Partiyasının digər rəhbərləri ilə birgə ingilislər tərəfindən həbs olunaraq Malta adasına sürgün olunur. Sürgündən qayıtdıqdan sonra Ankaradakı Mətbuat İnformasiya İdarəsinə rəhbərlik etmiş, "Hakimiyyəti-milliyyə" qəzetinin baş redaktoru olmuş, ikinci və üçüncü çağırış Türkiyə Böyük Millət Məclisinə deputat seçildikdən sonra Mustafa Kamal Atatürkün xarici məsələlər üzrə siyasi məsləhətçisi olmuşdur. Qaraciyər iltihabı və ürək çatışmamazlığı nəticəsində 1939-cu ildə

İstanbulda dünyasını dəyişir, cənazəsi Nişantəpədəki evindən, Təşfikiyə camisinə gətirilib. Cənazə namazı qılındıqdan sonra isə Feriköy məzarlığında həyat yoldaşının yanında dəfn olunur.

• Hüseyn Cavid (doğum adı:Hüseyn Abdulla oğlu Rasizadə), (1882-1941) – Azərbaycanın şairi, yazıçısı, dramaturqu, Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas nümayəndəsi, milli romantik şerin və mənzum faciənin banisidir. İbtidai təhsilini Naxçıvanda molla məktəbində, orta təhsilini M.T.Sidqinin "Məktəbi-tərbiyə" adlı yeni üsullu məktəbində alır. 1899-1903-cü illərdə Təbrizin "Talibiyyə" mədrəsəsində təhsilini davam etdirmiş, İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirdikdən sonra Naxçıvanda, sonra isə Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllim işləmişdir. Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan "Şeyx Sənan" əsərində xalqları bir-birinə qovuşdurmaq üçün ümumbəşəri din ideyasını ortaya atmışdır. 1926-cı ildə müalicə üçün Almaniyaya gedən və 7 ay Berlində yaşayan Hüseyn Cavid oradan ziyalıların mənəvi iztirablarını əks etdirən bir sıra siyasi-lirik və lirik-epik şerlər yazır. 1920-1930-cu illərdə "Peyğəmbər", "Topal Teymur", "Səyavuş", "Xəyyam" kimi bir sıra tarixi dramlar yazmışdır. 1938-ci ildə həbs olunaraq "əks-inqilabi əlaqələr saxlamaq", "bir sıra müsavatçılarla müsavatçı söhbətlər aparmaq", "öz ətrafında millətçi düşüncələrlə köklənmiş cavan şairləri toplayıb müsavatçı ruhda təkmilləşdirmək" kimi ittihamlarla günahlandırılıb. 9 iyun 1939-cu ildə şair 8 il islah əmək düşərgəsinə məhkum edilir və Sibirə sürgün edilir. O, 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunundа dünyasını dəyişib və orada dəfn olunub. 1982-ci ilin oktyabrın 26-da H.Əliyevin təşəbbüsü ilə cənazəsi Naxçıvana gətirilərək dəfn edilmişdir. Ölümündən sonra 1956-cı il martın 6-da Azərbaycan SSR Ali Məhkəməsinin hökmü ilə Hüseyn Cavid bəraət alır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Hüseyn Cavid Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir

• Xəlil Rza Ulutürk (1932-1994) – azərbaycanlı şair, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, 1954-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1969), Azərbaycanın əməkdar incəsənət xadimi (1986), M.F.Axundov adına ədəbi mükafat laureatı (1991), Azərbaycan Respublikasının xalq şairi (1992). Ölümündən sonra "İstiqlal" ordeni ilə təltif olunub. 1950-1960-cı illərdə Azərbaycan Pedaqoji Universitetində baş müəllim, Azərbaycan Dövlət Universitetini bitirən Xəlil Rza "Azərbaycan qadını" jurnalı redaksiyasında ədəbi işçi, 1954-cü ildə SSRİ Yazıçılar ittifaqının üzvü, 1957-ci ilin avqust ayında Azərbaycan Yazıçılar İttifaqı onu Moskvaya, M.Qorki adına Dünya Ədəbiyyat İnstitutu nəzdində olan ikiillik Ali Ədəbiyyat kurslarına göndərmiş, 1959-cu ildə Bakıya qayıtdıqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. 1990-cı il yanvarın 26-da Xəlil Rza SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları tərəfindən həbs edilib Moskvaya – Lefortovo həbsxanasına göndərilir. Aramsız sorğu-sual, ağır ittiham şairin iradəsini qıra bilmir,

o, zindanda da mübarizəsini davam etdirir.8 ay 13 gün öz mühitindən təcrid olunmuş şair "Lefortovo gündəliyini", 200-dən çox, şeir, poema və məktubunu qələmə alır. "Lefortovo gündəliyi" şairin qəbul etdiyi Ulutürk təxəllüsünün vəsiqəsidir. Lefortovo həbsxanasında şəkər xəstəliyi olan Xəlil Rzanın səhhəti pozulmuş, oktyabrın 9-da yatab qatarında Moskvadan Bakıya gətirilən Xəlil Rza, bir ay davam edən məhkəmə prosesindən sonra azadlığa buraxılır. 1991-ci il mayın 6-da "Türk milləti mükafatı laureatı" fəxri adına, 1992-ci ildə Azərbaycan Respublikasının Xalq şairi fəxri adına layiq görülür. Süleyman Dəmirəlin tapşırığı ilə cərrah Paşa adına Şəfa evində onun şəkərini və gözlərini müalicə edirlər. May ayının 19-da Həsaki Qəlb xəstəxanasında ürəyində cərrahiyyə əməliyyatı aparılır. 1993-cü il fevral ayının 11-də Bakıya qayıdaraq müalicə komissiyasında həkimlərin nəzarəti altında saxlanılır. Lakin çox çəkmir ki, həkimlərin məsləhətinə görə, şair 1993-cü il avqust ayının 23-də Almaniyanın Zolenger şəhər klinikasına göndərilir. Bakıya qayıtdıqdan bir müddətdən sonra yenə vəziyyəti ağırlaşır və onu Kardiologiya İnstitutunda müalicə edirlər. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fransaya rəsmi səfəri zamanı Xəlil Rza və həyat yoldaşı Firəngiz xanım da nümayəndə heyətinin tərkibinə daxil edilirlər. Fransa səfərindən sonra tez-tez ön cəbhə bölgələrində, məktəb və mədəniyyət ocaqlarında, görüşlərdə çıxışlar edir, şerlər oxuyur, gərgin həyat tərzi onu haldan salıb vəziyyətini ağırlaşdırdı. 1994-cü il iyunun 22-də bədii yaradıcılığının barlı-bəhərli çağında şairin vətən eşqi, xalq məhəbbəti ilə çırpınan ürəyi dayanır və Fəxri Xiyabanda dəfn olunur. Onun məzari üstündə şairin əzəmətli heykəli yüksəldilir. Şairin vəfatından sonra, onun ömür-gün yoldaşı, Firəngiz xanım onun şerlərini, gündəliklərini və tərcümələrini sahmana salıb sanballı kitab halında Xəlil Rza Ulutürk imzası ilə nəşr etdirməkdədir. O, Xəlil Rzanın yarımçıq işlərini – "işıq üzü görməyən küll halında qalmış əsərlərini" nəşr etdirməklə "onunla nəfəs alır", onu yaşadır, onu ölməzliyə, əbədiyyətə qovuşdurur. Azərbaycan xalqının milli mübarizəsində xüsusi xidmətlərinə görə xalq şairi Xəlil Rza Ulutürk (ölümündən sonra) "İstiqlal" ordeni ilə təltif edildi.

Türkiyədə türkologiyanın əsası Şəmsəddin Saminin, Əhməd Vəfik Paşanın və Əli Suavinin yazıları ilə başlamışdır. II Konstitutsiya dövründən sonra qərb qaynaqlarını qavramaq formasına düşmüşdür.

Osmanlı dövründə türkologiyaya o qədər də maraq olmasa da, Türkiyə Cümhuriyyəti yaradıldıqdan sonra Mustafa Kamal Atatürkün rəhbərliyi ilə birbaşa türkologiya ilə məşğul olacaq iki önəmli qurum yaradıldı:Türkiyədə 100-ə yaxın türk dili və ədəbiyyatı fakültəsində türk dili alimi adı ilə Türkoloq yetişdirilir. Hər il məzun olan minlərlə türk dili və ədəbiyyatı fakültəsi məzunu şəxsin türklük elmi yerinə ədəbiyyatçı olaraq qəbul edilməsinə görə yeni fakültələr və institutlar yaradılmışdır.

Türkologiyanın əsas araşdırılma mövzularından olan türk dili 48 qeyri-türk ölkəsində xarici dil kimi öyrədilir. 223 elmi mərkəzdə isə türk dili təhsili verilir və türk dili araşdırılır.

Tanrı türkə yar olsun. Türk elləri var olsun.

**Qəmbər Cəfərov,**

*Türkoloqların I Beynəlxalq Sistemoloji Konqresinin*
*təşkilat komitəsinin sədri.*